***AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ***
***AZƏRBAYCANCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN nəzdində***
***QİDA SƏNAYESİ KOLLECİ***
***(tədris müəssisəsinin adı)***

**Təsdiq edirəm:**

**Tədris işləri üzrə direktor müavini**

**____________T.Əfəndiyev**

**"_**

**ÜMUMİTƏHSİL VƏ ÜMUMTEXNİKİ**

**FƏNN BİRLƏŞMƏ KOMİSSİYASI**

**"İKT – baza kompüter bilikləri" fənni üzrə**

***Fənn sillabusu***

**Fənn haqqında məlumat**

**Tədris ili:**
**Tədris semestri: semestr**
**Ixtisas: Çörək və unlu qənnadı məmulatlarının texnologiyası. Ət və ət məhsullarının texnologiyası .Konservləşdirmə və qida konsentrantları texnologiyası**
**Qrup:**
**Tədris yükü: 45 saat (mühazirə/məşğələ - 30/15)**
**Kredit sayı: 3 (dörd)**
**Tədrisin forması: əyani**
**Müəllim haqqında məlumat**
**Fənni tədris edən müəllim:**

**Fənn haqqında məlumat:**

Bu fənn, əsas fənlər siyahısına daxil olmaqla, bakalavr pilləsində iqtisadyönlü ixtisaslarda təhsil alan tələbələrə kompüterin baza biliklərini və informasiya-kommunikasiya texnologiyalarının (İKT) fundamental anlayışlarının mahiyyətini təqdim edir, həmçinin İKT-nin professional fəaliyyətdə istifadəsi haqqında aydın təsəvvür yaradır, tələbələrə bu texnologiyalardan istifadə etmə bilik və bacarıqları aşılayır.

Fənnin tədrisində informasiya, informasiyanın növləri və xassələri, informatikanın əsas anlayışları - informasiya, verilənlər və bilik arasındakı sıx əlaqə, informasiya prosesləri, informasiya sistemləri, informasiya texnologiyaları (İT), informasiya məhsulu, informasiya mədəniyyəti və

informasiya cəmiyyəti haqqında məlumat verilir, İKT anlayışının mahiyyəti və baza kompüter biliklərinin aşılanmasında fənnin məqsədi və rolu şərh olunur. Tədris zamanı informasiyanın kodlaşdırılması və alqoritmləşdirmənin əsasları, kompüterin texniki və proqram təminatı, həmçinin Windows Əməliyyat Sisteminin (ƏS) - nin əsas interfeysi, texnologiyaları və imkanları, onun standart proqramlarının funksiyaları, MS Office paketinin bəzi proqramlarının - mətn və cədvəl prosessorlarının imkanları, verilənlər bazasında verilənlərin axtarışı, çeşidlənməsi və saxlanması məsələləri, təqdimatın hazırlanması, dizaynı və nümayiş etdirilmə üsulları, həmçinin kommunikasiya texnologiyalarının əsasları və informasiya axtarışının üsul və vasitələri öyrədilir, onlardan istifadənin dərindən mənimsənilməsinə diqqət edilir, dövlət idarəetməsində İKT-nin tətbiqi sahəsində tələbələrə zəruri bilik və bacarıqlar aşılanır.

**Fənnin məqsədi və vəzifələri**

Fənnin tədrisində məqsəd kompüterin baza biliklərini aşılamaqla iqtisadiyyatda, idarəetmədə və digər sahələrdə müasir Office texnologiyalarının tətbiqi üzrə tələbələrdə nəzəri, təcrübi biliklər və informasiya mədəniyyəti formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- informasiya proseslərinin cəmiyyətdəki rolunu, bioloji və texniki sistemləri əks etdirən əsas biliklər sisteminə yiyələnmək;
- kompüterdən informasiyanın idarə edilməsi vasitəsi kimi istifadə bacarığına və qlobal kompüter şəbəkələrində informasiya ilə işləmə qabiliyyətinə malik olmaq;
- kompüterin arxitekturası və əsas komponentlərinin təyinatı və informasiyanın alınması, saxlanması, emalı və ötürülməsi üzrə əsas üsul və vasitələrə yiyələnmək, informasiya texnologiyalarına dair tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- qoyulmuş məsələyə uyğun olaraq iqtisadi verilənlərin emalı üçün emal vasitələrini seçmə, hesablamanın nəticələrini təhlil etmə və alınmış nəticələri əsaslandırma bacarığına yiyələnmək;
- digər fənlərlə yanaşı, İKT-dən istifadə edərək real obyekt və proseslərin informasiya modellərini tətbiq və təhlil etmək, çevirmək bacarıqlarına yiyələnmək;
- əmək bazarında tələb olunan müxtəlif sahələrdə informasiya fəaliyyətini yerinə yetirmək.
- layihə fəaliyyətində təcrübə qazanmaq, müasir proqram vasitələrindən istifadə edərək müxtəlif növ informasiya obyektlərini yaratmaq, redaktə etmək, tərtibatını vermək, saxlamaq, ötürmək;
- informasiya fəaliyyətinin etik və hüquqi normalarına riayət olunmasına məsuliyyətli münasibəti formalaşdırmaq.

**Əsas dərslik və dərs vəsaitləri**


1. *Əliyeva T.Ə. İdarəetmənin informasiya texnologiyaları. Dərs vəsaiti – Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2012, 369 s.*
2. *Əlizadə M.N., Salamanova M.Ə., Seyidzadə E.V., Abbasova X.E., Orucova M.Ş. İnformatika (mövzular, suallar və testlər) - Yenidən işlənmiş II nəşr (Dərlik). "Bilik" nəşriyyatı, 2015-ci il, 680 səh.*
3. *Əlizadə M.N., Orucova T.V. , Fərhadova G.M., Novruzova G.N. Microsoft Excel Elektron*

*cədvəl prosessoru (Dərs vəsaiti), "UniCild" MMC, 2017 ci il, 144 səh.*

4. *Əlizadə M.N.,Seyidzadə E.V., Hacızadə S.M. Microsoft Office 2013 (Dərs vəsaiti). MSV NƏŞR, 2018-cı il, 448 səh.*
5. *Kərimov S.Q. İnformasiya sistemləri. Bakı: Elm, 2008, 676 s.*
6. *Müslümov V.B., Əliyev Ə.Ə., Həbibullayev S.B., Sərdarov Y.B. İnformatika. Tələbələr, bakalavrlar, doktorantlar, magistraturaya və vakant iş yerlərinə hazırlaşanlar üçün vəsait, 2015, 703 s.*
7. *İnternet-resurslar*

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| № | Mövzunun adı və qısa məzmunu | Müh | tarix | Məş. | Tarix |
|---|---|---|---|---|---|
| | **I bölmə**<br>**İKT** | | | | |
| 1.1 | **İnformasiya. İnformasiya prosesləri**<br>İnformasiya. İnformasiyanın növləri və xassələri. Müxtəlif informasiya obyektləri. Dil informasiyanın təqdim olunma üsulu kimi: təbii və formal dillər. Real obyekt və proseslərin təsvirinin formallaşdırılması İnformasiya prosesləri: informasiyanın emalı, saxlanması və ötürülməsi. İT və İKT anlayışları. | **2** | **17.02** | **2** | **19.02** |
| 1.2 | **İnformasiyanın kodlaşdırılması və təsviri.**<br>İnformasiyanın kodlaşdırılması. Simvolların kodlaşdırılma standartları. ASCİİ və UNİCODE cədvəlləri. İnformasiya miqdarının ölçü vahidləri. | 2 | **24.02** | | |
| 1.3 | **Məsələlərin kompüterdə həll mərhələləri**<br>Alqoritm anlayışı .Alqoritmin əsas xassələri.Alqoritmin təsvir üsulları. Alqoritmin strukturları (xətti, budaqlanan, dövri).Konkret məsələlərin həll alqoritminin qurulması | **2** | **3.03** | **2** | **5.03** |
| | **II bölmə**<br>**Kompüterin aparat və proqram təminatı** | | | | |
| 2.1 | **Kompüterin texniki təminatı**<br>Fərdi kompüterlər və onların təsnifatı. Kompüterin arxitekturası və strukturu. | **2** | **10.03** | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Kompüterin əsas bloklarının təyinatı.Yaddaşın növləri. Daxili və xarici yaddaş qurğuları.Periferiya qurğuları və onların təyinatı. | | | | |
| **2.2** | **Kompüterin proqram təminatı**<br>Proqram təminatının (PT) təsnifatı (sistem PT, tətbiqi PT, instrumental PT)<br>Sistem PT-nin komponentləri və onların təyinatı | **2** | **17.03** | **2** | **19.03** |
| **2.3** | **Əməliyyat sistemləri ilə işin əsasları**<br>ƏS və onların təsnifatı<br>ƏS-nin təyinatı və funksiyaları<br>ƏS-nin əsas obyektləri (fayl, qovluq, qısayol)<br>Pəncərənin növləri, fayl və qovluqlar üzərində əməliyyatlar | **2** | **24.03** | | |
| **2.4** | **Microsoft Windows əməliyyat sistemi**<br>Drag and Drop, Plug and Play və OLE texnologiyaları. Mübadilə buferi (Clipboard)<br>Windows bələdçisi (Windows Explo) proqramı ilə iş<br>MS Windows ƏS-nin idarəetmə paneli (Control Panel) | **2** | **31.03** | **2** | **2.04** |
| | **III bölmə**<br>**Office proqramları** | | | | |
| **3.1** | **MS WORD 2010 MƏTN PROSESSORU**<br>Microsoft Office Word. Mətn sənədlərinin yaradılması texnologiyaları haqqında ümumi məlumat. Word-də sənədlərin yaradılması üsulları. Mətn sənədinin yaradılması. Verilənlərin daxil edilməsi və redaktəsi. Word sənədinin əsas elementləri, onlar arasında əlaqə - sənədin strukturu. | 2 | **7.04** | | |
| **3.2** | **EXCEL redaktoru haqqında anlayış.**<br>EXCEL-də verilənlər modelinin siyahılar şəklində təşkili<br>Cədvəl, sətirlər, sütunlar, xanalar, ünvan, mütləg ünvan, nisbi ünvan, diapazon, işçi vərəg, işçi kitab, istinad və s. | **2** | **14.04** | **2** | **16.04** |
| **3.3** | **MS Excel də düsturların yazılması. Diaqramların qurulması.**<br>EXCEL-də verilənlər modelinin siyahılar şəklində təşkili. Excel- bir cədvəlli verilənlər bazası şəklində. Excel–in lent interfeysində Formulas və Data kimi fərqli menyu bəndləri | **2** | **21.04** | | |
| **3.4** | **Verilənlər bazası. Verilənlər bazası idarəetmə sistemi MS ACCESS** | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Verilənlər bazası (VB, DB-Data Base) dedikdə müəyyən predmet sahəyə aid olan, maddi daşıyıcıda müəyyən qayda ilə, bir qayda olaraq VBİS vasitələrilə təşkil olunmuş verilənlər məcmusu. Verilənlər bazasını idarəetmə sistemi(VBİS, DBMS- Data base Management System). | **2** | **28.04** | **2** | **30.04** |
| **3.5** | **MS POWER POINT 2010 – TƏQDIMATLARIN HAZIRLANMASI**<br>Microsoft Power Point elektron təqdimat proqramının təyinatı və əsas xüsusiyyətləri.PowerPoint 2010 proqram pəncərəsi və onun əsas komponentləri.Elektron təqdimat və slaydlar<br>Slayda mətnlərin daxil edilməsiTəqdimatın görünüş rejimləri. | **2** | **5.05** | | |
| | **IV bölmə**<br>**Lokal və qlobal şəbəkələr** | | | | |
| **4.1** | **Kompüter şəbəkələri və onların təyinatı. Internet şəbəkəsi**<br>Açar sözlər: server, protokol, lokal şəbəkə, qlobal şəbəkə, domen Brauzerlər. Axtarış saytları. Domen anlayışı. Əsas domenlər. Ərazi domenləri. Sənədlərin axtarışı texnologiyası. | **2** | **12.05** | **1** | **14.05** |
| **4.2** | **İnternet. İnternet xidmətləri**<br>Müasir dövrdə internet xidmətləri ən çox istifadə olunan xidmətlərdi. Buraya elektron poçt, telekonfrans, elektron kitabxanalar, online təhsil, elektron ticarət və s. Kimi xidmətlər daxil edilmişdir. | **2** | **19.05** | | |
| | **V bölmə**<br>**Elektron hökümət** | | | | |
| **5.1** | **Dövlət idarəetməsində İKT-nin tətbiqi**<br>Elektron dövlət və elektron hökümət anlayışları. Elektron dövlət və elektron idarəetmənin yaranma səbəbləri. Elektron dövlətin təşkilinin qayda və prinsipləri.<br>Azərbaycanda elektron idarəetmənin vəziyyəti və perspektivləri. E-hökümət infrastrukturunun əsas komponentləri.“Elektron hökumət”-in cəmiyyətimiz də üzləşdiyi problemlər. | **2** | **26.05** | **2** | **28.05** |
| | **CƏMİ:** | **30** | | **15** | |

**Qiymətləndirmə**

**Fənn üzrə krediti toplamaq üçün lazım olan 100 balın toplanması aşağıdakı kimi olacaq:**

**50 bal** - imtahana qədər
O cümlədən:
**-10** bal dərsə davamiyyətə görə ( fənn üzrə ayrılmış auditoriya saatlarının 25%-dən çoxunda iştirak etməyən tələbə həmin imtahana buraxılmır)
**-20** bal tələbənin məşğələdə cavabına görə
-**20** bal kollokviumdakı cavabına görə (kollokvium hər yarım ildə 10-12-ci həftə aralığında bir dəfə olmaqla keçirilməlidir.)
**-50** bal imtahanda toplanılacaq
**Qeyd:**

İmtahan test üsulu ilə keçiriləcəkdir. Test 20 sualdan ibarət olacaqdır. Bunlardan 15 sual qapalı test, 5 sual isə açıq test olacaqdır. Qapalı testlərin hər biri 2 balla, açıq testlər isə maksimum 4 balla qiymətləndiriləcəkdir.

( 4 bal -tələbənin keçilənləri tam qavramasını və fikrini ətraflı izah edə bilməsinə görə ;

3 bal -tələbənin keçilənləri tam qavramasını və fikrini qismən zəif ifadə edə bilməsinə görə ;

2 bal- tələbənin keçilənləri qismən qavradığını və fikrini çox zəif ifadə edə bilməsinə görə ;

1 bal- tələbənin keçilənləri çox zəif qavramasını və fikrini heç cür ifadə edə bilmədiyinə görə;

0- bal tələbənin heç nəyi qavramadığına görə verilir. )

Səhv cavablanan suallar düzgün cavablanan sualların ballarını silmir.

İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanılmayacaq.

İmtahan və imtahana qədər toplanan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

| | |
|---|---|
| A – “əla” | - 91-100 bal; |
| B – “çox yaxşı” | - 81-90 bal; |
| C – “yaxşı” | - 71-80 bal; |
| D – “kafi” | - 61-70 bal; |
| E – “qənaətbəxş” | - 51-60 bal; |
| F – “qeyri-kafi” | - 51 baldan aşağı. |

Tərtib etdi fənn müəllimi ____________Məmmədova İradə M.

Fənn birləşməsinin iclasında müzakirə olunub qəbul edilmişdir.

Protokol № “_